# O, milli ruhun simvoludur



**Qəhrəmanlığın əsasını qoyan vətənpərvərlik özündə vətənə, millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə vətənə, millətə xidmət etməyi birləşdirirsə, bunların zirvəsində Vətən üçün ölümə hazır olmaq dayanır. Bu, vətənpərvərliyin ən uca və ali formasıdır. Bəşər övladı Vətənə xidmət etməyin bundan uca zirvəsini kəşf etməmişdir. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir desək, yaqin ki, səhv etmərik.**



Tarixi keçmişimizə, bu günümüzə nəzər salsaq, görərik ki, doğma yurdumuz Azərbaycanın igid, cəsur oğulları, qeyrətli qızları həmişə vətənpərvər olmuş, işğalçılara qarşı qəhrəmancasına mübarizə apararaq, Vətənimizi düşmən ayağına verməmişlər. Qəhrəmanlarımız Vətən naminə canlarını qurban verməkdən çəkinməmişlər. Bu yazıda onlardan biri haqqında söhbt açacam.

Qəhəmanımız haqqında oxuduqca onun vətənə olan sevgisi, fədakarlığı qarşısında baş əyməmək olmur. Düşməni lərzəyə gətirən "Qoca qurd", "Kölgə adam" ləqəbli ölməz qəhrəman, əfsanəvi xüsusi təyinatlı, Azərbaycan Silahlı Qüvvələrinin giziri Pəncəli Nurməmməd oğlu Teymurov.

Cəsur Vətən oğlu 1981-ci il martın 24-də Astara rayonunun Əzərüd kəndində anadan olub. 1986-1998-ci illərdə Astara rayonu, B.Rüstəmov adına Asxanakəran tam orta məktəbində təhsil alıb. 1999-cu ildə Astara Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmət zamanı kəşfiyyatçı peşəsinə yiyələnib və hərbi hissənin ən mahir kəşfiyyatçısı olub. Hərbi xidməti başa vurduqdan sonra könüllü olaraq xidmətini yenicə yaradılan Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin kəşfiyyatçı-diversant taborunda davam etdirib və 17 il Azərbaycan Ordusunda şərəflə xidmət edib.

Ailəsi sadə kənd həyatına sahib olsa da, vətənə və millətə bağlılıq onların tərbiyəsinin əsasını təşkil edirdi. Valideynləri övladlarını dürüstlük, zəhmətsevərlik və vicdanlılıq prinsipləri ilə böyüdüb, milli-mənəvi dəyərlərə bağlı bir gənc kimi yetişdiriblər.

Kənd mühitində böyüməsi, təbiətlə iç-içə yaşaması, onu həm fiziki, həm də ruhi cəhətdən gücləndirib. Kiçik yaşlarından dostları arasında fərqlənən, cəsarətli və məsuliyyətli davranışı ilə seçilən Pəncəli, hər zaman haqqın tərəfində olmağa üstünlük verirdi. Bu xüsusiyyətləri onun gələcəkdəki hərbi xidmətinə və qəhrəmanlıq yoluna təməl oldu.

Bəli, ermənilərin başına 1 milyard (dramla) pul qoyduğu bu "kölgə adam" mümkün qədər gizli fəaliyyət göstərməli idi. Özü hər nə qədər sirli olsa da, qəhrəmanlıqları düşməni vahiməyə gətirmişdi. Haqqında o qədər maraqlı faktlar var ki, tanış olub, hərbçi yoldaşlarının onun haqqında danışdıqlarını eşitdikcə ölümünə inanmaq olmur.

Pəncəli 11 yaşı olanda 1992-ci ildə baş vermiş Xocalı soyqırımının kadrlarını izləyəndən sonra hərbçi olacağına və düşməndən intiqam alacağına söz verir.

Uşaqlıq illərində kəndin meşələrində ağacların üzərinə adını yazaraq tank, silah, ilan şəkillərinin çəkərək hərbiçi olacağını bildirir.

O, illər sonra sözünə əməl edir. Xocalı faciəsi zamanı azərbaycanlıları qəddarlıqla öldürən erməni zabit general rütbəsi almağa gedərkən Pəncəli Teymurov onu izləyir və əlverişli məqamda onun başını kəsərək məsını məhv edir. Bu, erməni ordusunda böyük çaxnaşma yaradır.

2015-ci ildə kəşfiyyat qrupu ilə Kəlbəcərə keçən, "erməniyə qan udduracağam"- deyən Pəncəli 4 erməni zabitin və 20 əsgərin olduğu "Ural" markalı maşını partladaraq onların hamısını məhv edir. Düşmən tərəf bundan sonra Pəncəlinin başına bir milyard dram qoyur, lakin nə qədər cəhd etsələr də, səngərin üzərindən snayper güllələrini yağış kimi yağdırsalar da, onu ələ keçirə bilmirlər. Hətta bir dəfə erməni hərbçiləri Pəncəlini pusquya salsalar da, o, 21 gün səngərdə sağ qalıb, pusqudan çıxaraq növbəti dəfə düşməni qorxuya salır. Bu əməliyyatda göstərdiyi yüksək bacarıq və peşəkarlığı, cəngavərliyi, nümunəvi xidməti nəzərə alınaraq komandanlığın təqdimatına əsasən ölkə Prezidentinin Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunur.

2016-cı ilin aprel hadisələrinin ilk günü "Qoca qurd" ləqəbli Pəncəli öz döyüş yoldaşları ilə erməni təxribatının qarşısını almağa yola düşür. O, düşmənin bir neçə canlı qüvvəsini və texnikasını məhv edir. Mühasirəyə düşsə də, son damla qanına kimi döyüşür. İgid soydaşımız aprelin 2-də Tərtərdə düşmənə ağır zərbələr endirdikdən sonra şəhid olur.

Qəhrəmanımızın düşmənə sarsıdıcı zərbələr vurduğu elə xüsusi əməliyyatları var ki, bu gün də erməni ordusunda vahimə ilə xatırlanır. Ona görə də dostları deyirlər ki, "Pəncəli sağ ikən öz qisasını almışdı".

Vətənə canı və qanı ilə bağlı olan Pəncəli Teymurov 2013-cü ildə öz toyunda kimsənin gözləmədiyi halda, mikrofonu götürüb düşməndən intiqam alıb şəhid olmağı və üçrəngli bayrağımıza bükülüb dəfn olunmağı arzulamışdı: "Dostlar, həqiqətən, bəzi şeylər var ki, bizim əlimizdə deyil. Amma mən sidq ürəklə deyirəm. Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan, qanımdan keçməyə hazıram. Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın". Tale onun bu sözünü də çin elədi. Pəncəli həm arzularına çatdı, həm də özündən sonra böyük qəhrəmanlıq yolu qoydu.

Qardaşı Famil Teymurovun söhbə-tindən: "35 yaşında onun hərbi xidmət-də qulluq səlahiyyətləri başa çatacaqdı. Pəncəli deyirdi ki, "Qulluq vaxtım bitəndə, mən neyləyəcəm? Mən ordusuz yaşaya bilmərəm".

Yas məclisində iştirak edən Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-mayor Hikmət Mirzəyev onun şücaətlərindən danışaraq Pəncəli haqqında "O, ordunun bel sütunu idi"-demişdi. Dostları isə onun Aprel döyüşlərində Goranboydan üzü Talış yüksəkliyinə qədər, Ağdərədə necə qeyrətlə, qəhrəmanlıqla vuruşduğunu deyirdilər. Danışırdılar ki, həmin gecələrdə Pəncəlinin döyüş ruhu bir ordunun gücünə bərabər idi. Qarşı-sına çıxan düşməni məhv etdikcə, qanı coşub-daşırdı. Keçdiyi meşələrdə ağacların üzərinə adını həkk edirdi, yollarda iz qoyurdu qəhrəmanımız.

Anası Vahimə Ağayevanın oğlu haqqında danışdığı qəhrəmanlıqları dinlədikcə bir azərbaycanlı kimi onunla fəxr etməmək olmur. Pəncəli Teymurovun həyatı gənclərə vətənə sədaqətin, cəsarətin və fədakarlığın nə qədər dəyərli olduğunu göstərir. O, milli ruhun simvoludur.

Bütün bu qəhrəmanlıqları düşmənə qələbə mesajı idi. 2016-ci il Aprel döyüşlərindən sonra Ermənistan həqiqi həyəcanı yaşayaraq, məğlubiyyətin qaçılmaz olduğunu artıq dərk etmişdi. Azərbaycanın igid oğullarının artıq səbrinin tükəndiyini bilirdilər.

Beləliklə, Ermənistan hərbi birləşmələrinin 4 il ərzində tədricən işğal etdiyi və 30 ilə yaxın dövr ərzində işğalda saxlayaraq ərazisində güclü hərbi istehkamlar, manеələr, müdafiə xətləri qurduğu Azərbaycan torpaqları 44 gün ərzində azad edildi. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu, Ermənistan-Azərbaycan münaqişəsi tarixə çevrildi.

Hərbi tapşırıqları uğurla başa çatdırdığına görə müxtəlif döyüş mükafatları, medallarla təltif olunan Pəncəli ən böyük mükafatı Azərbaycan Prezidentinin Sərəncamı ilə "İgidliyə görə", ölümündən sonra "Vətən uğrunda" medalları olub. Aprel döyüşlərinin şəhidi, gizir Pəncəli Nurməmməd oğlu Teymurova 2025- ci il 7 noyabr tarixli Sərəncamı ilə Prezident İlham Əliyev tərəfindən (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Ruhun şad olsun ŞƏHİDİM.

***Gülşəndə MAMEDOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi***

